**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№357/5** **12 iyun 2023-cü il**

**2023-cü il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı və qrafiki barədə**

Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 5.1-ci “2023-cü il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramının və qrafikinin hazırlanması” bəndinin icrası ilə əlaqədar Palatanın Kadr hazırlığı idarəsi (E.Behbudova) tərəfindən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış 2023-cü il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının və qrafikinin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “2023-cü il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı və qrafiki” təsdiq edilsin (əlavə olunur).

2. Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki:

2.1. iki həftə müddətində 2023-cü il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının və qrafikinin Palatanın üzvlərinə və ixtisasartırma kursunu aparacaq müəllimlərə çatdırılması təmin edilsin;

2.2. cari ilin 10 avqust tarixinədək 2023-cü il üzrə auditorların ixtisasartırma kursunu tədris edən müəllimlərdən tədris materiallarının və ədəbiyyat siyahısının əldə olunması təmin edilsin.

3. Bu qərarın və “2023-cü il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı və qrafiki”nin mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**